# Azərbaycan mətbuat işçilərinin təltif edilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin sərəncamı*

Azərbaycan milli mətbuatının 130 illiyi münasibətilə Azərbaycan jurnalistikasının inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Şöhrət" ordeni ilə**

Nəcəfov Nəcəf Adil oğlu (ölümündən sonra)

**"Tərəqqi" medalı ilə**

Abduləliyev Ariz Əli oğlu
Ağacanov Elçin Alı oğlu
Ağazadə Firudin Fitat oğlu
Ayvazov Məhəmməd Ayvaz oğlu (Eyvaz Borçalı)
Bağırov Fərman Rza oğlu
Bağırov Rafiq Hidayət oğlu
Baxşəliyeva Xoşqədəm Hidayət qızı
Bayramova Zümrüd Ələddin qızı
Cavadlı Cavad Ələsgər oğlu
Cəfərov Oqtay Məhəmməd oğlu
Fərəcov Məhəmməd Təvəkkül oğlu
Əhmədov Teymur Əkbər oğlu
Əhmədov Firudin İsa oğlu
Əhmədova Əminə Yusif qızı
Əlibəyli Bəsti Tağı qızı
Əliyev Yunus İsaxan oğlu
Əliyev Cahangir Həsənəli oğlu
Əliyev Əsgər Hüseyn oğlu
Əliyev Müştəba İsmayıl oğlu
Əliyev Nair Ramiz oğlu
Əliyev Telman Fətulla oğlu
Əliyeva Səbinə Fikrət qızı
Hacıyev İsmayıl Alış oğlu
Heydərov Telman Əziz oğlu
Həsənov Rafiq Abuzər oğlu
Hüseynov Ağahüseyn Abbasəli oğlu
Hüseynov Tofiq Yadulla oğlu
Xəlilova Flora Fətulla qızı
İbadov Kamal Alış oğlu
İsaqov Süleyman Osman oğlu
İsayev Əhməd Məmməd oğlu
Kazımzadə Aqşin Zəki oğlu
Qasımova Tofiqəxanım Fazil qızı
Quliyev Cəmaləddin Həsən oğlu
Quluzadə Qeyrət Bağır oğlu
Mehdiyev Allahverdi Məhəmməd oğlu
Mehdiyev Qafar Qələndər oğlu
Məhərrəmov Valeh Cəbrayıl oğlu
Məmmədov Şamxəli Hətəm oğlu
Məmmədov Raqif Məmməd oğlu
Məmmədov Salis Məmmədsani oğlu
Məmmədov Vahan Sarı oğlu
Məşədiyev Ənvər İbrahim oğlu
Mirzəyev Valeh Əvəz oğlu
Mirzəyeva Solmaz Abbas qızı
Musayev Alqış Həsən oğlu
Musayev Hümmət Kazımoğlu
Mustafayev Sabir Yadulla oğlu
Orucov Rauf Tofiq oğlu
Parfyonova İrina Gennadyevna
Rəfizadə Ruslan Nəsib oğlu
Rüstəmov İlqar Gülağa oğlu
Salahlı Səyyad Adil oğlu
Sultanova Ağanisə Əliqara qızı
Sultanova Aidə Sultan qızı
Süleymanov Binnət Tanrıverdi oğlu
Vəliyev Akif Əbdüləzim oğlu
Vəliyev Həmid Alı oğlu
Vəliyev Yaşar Hidayət oğlu
Vəliyeva Sona Məhəmməd qızı
Yevqraşina Lada Georgiyevna
Yusifov Tofiq Sədrəddin oğlu
Zeynalov Mübariz Mirzəğa oğlu
Zeynalov Zeynalabdin İsmayıl oğlu (Zeynal Vəfa)

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 iyul 2005-ci il*

# Azərbaycan mətbuat işçilərinə fəxri adların verilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin sərəncamı*

Azərbaycan milli mətbuatının 130 illiyi münasibətilə jurnalistikanın inkişafındakı xidmətlərinə görə aşağıdakı mətbuat işçilərinə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar mədəniyyət işçisi" fəxri adı**

Bayramov Əlipənah Gülağa oğlu
Dadaşov Aqil İsax oğlu
Əbilov Azər İmamverdi oğlu
Əliyev Rafiq Yusif oğlu
Əhmədov Qaçay Əli oğlu
Hacıbabayev Atababa İsmayıl oğlu
İbrahimov İbrahim Bəxtiyar oğlu
İsmayılova Bəsti Şahbaz qızı
İsmayılova Validə Vilayət qızı
Qasımov Polad Müseyib oğlu
Quliyev Akif Aslan oğlu
Quliyev Vaqif İttifaq oğlu (Vaqif Bəhmənli)
Qurbanov Ramiz Xudaqulu oğlu
Kərimova Sədaqət Qasımbəy qızı
Məcidov Rəşad Müseyib oğlu
Məmmədov Xanlar Ziya oğlu
Musayev Faiq Abbas oğlu
Novruzov Amil Şəmsəddin oğlu
Piriyev Qüdrət Əlövsət oğlu
Rəcəbova Möhtərəm Yusif qızı
Rəhimzadə Mirvari Əziz qızı
Rüstəmov Naib Əbülfət oğlu
Salamzadə Oqtay Məhəmmədhəsən oğlu
Səfərov Vüqar Müzəffər oğlu
Süleymanzadə Məzahir Bəybala oğlu
Yaqubov Şakir Hənifə oğlu
Yusifzadə Amil Qulam oğlu

**"Əməkdar jurnalist" fəxri adı**

Abbasov Aqil Məhəmməd oğlu
Abbasov Famil Qulam oğlu
Abbasov Zakir Mahmud oğlu
Abbasov Fazil Famil oğlu
Axundova Elmira Hüseynovna
Aslanov Qədir Təyyar oğlu
Babayev Nurəddin Məmmədəli oğlu
Cabbarov Xəlil Əliabbas oğlu
Capparov Zeytulla Əbdül oğlu
Cəbiyev Rizvan İsrafil oğlu
Əsədov Habil Əsəd oğlu
Əsgərov Ağabəy Məmməd oğlu
Həsənov Həsən Zal oğlu
Həsənova Mədinə Eyvaz qızı
Hüseynzadə Rəhim Məmməd oğlu
Xəlilov Mövsüm Miriş oğlu
İmanov Rafiq Hüseyn oğlu
Qaçayev İttifaq Məmmədcan oğlu
Quliyeva Qəmər Məhərrəm qızı
Qurbanova Nərgiz Əhməd qızı
Məlikov Qüdrət Balakişi oğlu
Məmmədov Firudin Müzəffər oğlu
Mirqədirov Rauf Həbibulla oğlu
Morozkov Vladimir Nikolayeviç
Nəbili Mahir Məhəmməd oğlu
Niyazov Xalid Qüdrət oğlu
Novruzov Kazım Hüseyn oğlu
Paşayev Cəfərqulu Əli oğlu
Rəhimzadə Vüqar Gəncəli oğlu
Rüstəmov Fariz Zal oğlu
Rüstəmov İbrahim İbad oğlu
Rüstəmov Rüstəm Məhəmmədəli oğlu
Rüstəmov Tahir Aydın oğlu
Sadıqov Bəxtiyar Yusif oğlu
Şulman Viktor Semyonoviç
Şıxlinski Elçin İsmayıl oğlu
Talışinski Rauf Rəfail oğlu

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 iyul 2005-ci il*

# Azərbaycan milli mətbuatının 130 illiyinə həsr olunmuş yubiley mərasimi





*Əvvəli 2-ci səh.*

Təsəvvür edin, hər vətəndaş az bir vaxtda özü üçün kütləvi informasiya vasitəsi təsis edə bilər və öz fikrini, məramını asanlıqla çatdırmaq imkanına malikdir. Azərbaycan mətbuatının hüquqi bazası gündən-günə genişlənir, təkmilləşir. Biz əminik ki, tezliklə informasiya azadlığı haqqında qanun qəbul olunacaq, informasiya ilə bağlı qanunvericilikdə düzəlişlər ediləcəkdir.

Azərbaycan mətbuatına dövlət qayğısının artırılması ilə bağlı iki mühüm sənəd qəbul edilibdir. Mətbuat üzərindən senzura, əlavə dəyər vergisi götürülmüş, ölkəmizə qəzet kağızının gətirilməsi ilə bağlı gömrük rüsumu sıfıra endirilibdir. Bütün bunlar 2002-ci ildə "Jurnalistlərin dostu" adına layiq görülən mərhum Prezidentimiz Heydər Əliyevin Azərbaycan mətbuatına qayğısı kimi qiymətləndirilir. Allah ona rəhmət eləsin!

Hörmətli xanımlar və cənablar!

Bu gün Azərbaycan mətbuatı problemlərdən də xali deyildir. Deyərdim ki, mətbuatımızın əsas problemi onun iqtisadi cəhətdən özünü maliyyələşdirə bilməməsidir. Belə olduğu halda, mətbuat vasitələri ya məhv olur, yaxud da başqa yollara əl atır. Nəticə göz qabağındadır. Azərbaycan mətbuatı siyasiləşir. Siyasiləşdikcə, müstəqilliyini itirir. Fərdi, qrup maraqları ümumi maraqları üstələyir. Nəticədə insanların şərəf və ləyaqəti alçaldılır, onların haqqında həqiqətə uyuşmayan materiallar baş alıb gedir. Mənə elə gəlir ki, hazırda mətbuatımızın inkişafını sürətləndirmək üçün aşağıdakı işləri görmək vacib şərtlərdəndir.

Müasir mətbuat öz problemlərinə kompleks yanaşmağa üstünlük verir. Mətbuatın inkişafı üçün mühüm dövlət sənədinin hazırlanması vacibdir. Həmin sənəddə bütün mətbuat vasitələrinin, əsasən də, rəsmi kütləvi informasiya vasitələrinin tezliklə özəlləşdirilməsi, müstəqilləşdirilməsi, mətbuatın maddi-texniki bazasının gücləndirilməsi, onlara həqiqətən də uzunmüddətli kreditlərin verilməsi, televiziyalara lisenziyaların verilməsinə başlanması və jurnalistlərin peşəkarlığının artırılması həmin proqramın əsas hissələrini təşkil etməlidir.

Bu gün burada Azərbaycan mətbuatının yubileyini keçirdiyimiz bir vaxtda təbii ki, Elmar Hüseynovla bağlı ağrı-acılar bizi tərk etməyibdir. Bu, təbiidir. Bu ağrı-acı bizi o zaman tərk edəcək ki, günahkarlar tapılıb haqlı cəzalarını alacaqlar. Biz, Azərbaycan jurnalistləri buna əminik.

Cənab Prezident, Siz Azərbaycan milli mətbuatının 130 illiyi ilə bağlı sərəncam imzaladınız. Həmin sərəncamın mətbuatımıza müsbət təsiri açıq-aşkar sezilməkdədir. Biz əminik ki, Siz bundan sonra da mətbuatla bağlı digər sənədlər qəbul edib, mətbuatın müstəqilləşməsi üçün əlinizdən gələni edəcəksiniz.

Çıxışımın sonunda mən Milli Mətbuat Günü münasibətilə hamınızı səmimi qəlbdən təbrik edirəm. Sizə həyatın ən gözəl neməti olan cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə nitq söylədi. ***(Dövlətimizin başçısının nitqi qəzetin bugünkü nömrəsində dərc olunur).***

* * *

Sonra Prezidentin İcra Aparatının ictimai-siyasi şöbəsinin müdiri Əli Həsənov Azərbaycan Prezidenti İlham Əliyevin bir sıra kütləvi informasiya vasitələrinin və onların əməkdaşlarının mükafatlandırılması ilə bağlı imzaladığı sərəncamları oxudu.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev jurnalistlərlə səmimi görüşdü, onların bayramlarını təbrik etdi, problemləri və qayğıları ilə maraqlandı.

Təltif olunan, mükafat alan kütləvi informasiya vasitələrinin nümayəndələri, jurnalistlər milli mətbuatımızın inkişafına göstərilən dövlət qayğısına görə respublikamızın rəhbərinə dərin təşəkkür və minnətdarlıqlarını bildirdilər. Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan mətbuatının inkişafındakı xidmətlərini xatırlatdılar, ulu öndərin rəhbərliyi dövründə mətbu orqanlara yetirilən diqqətin unudulmadığını, bu siyasətin uğurla davam etdirildiyini vurğuladılar, bəzi problemlərdən söhbət açdılar, dövlətimizin başçısına- xarici ölkələrdə nəşr olunan qəzet və jurnalların nüsxələrini təqdim etdilər.

Prezident İlham Əliyev mətbuatın, o cümlədən rayon qəzetlərinin inkişafı istiqamətində, onların problemlərinin həlli ilə bağlı bundan sonra da mühüm işlər görüləcəyini diqqətə çatdırdı. O dedi ki, hər şeyi etmək mümkündür. Sadəcə olaraq, gərək yerlərdə insanlar canla-başla işləsinlər. Biz də öz tərəfimizdən kömək edəcəyik. Sizin hamınızı bayram münasibətilə bir daha ürəkdən təbrik edirəm.

Prezident İlham Əliyev mərasimin sonunda jurnalistlərlə xatirə şəkli çəkdirdi.

***AzərTAc***
***Foto O.Aydınoğlunun və R.Bağırovundur***

# Ulu öndər Heydər Əliyev tərəfindən başlanmış iqtisadi islahatların uğurla həyata keçirilməsi nəticəsində bu gün Azərbaycan dünyada ən sürətlə inkişaf edən ölkələrdən birinə çevrilmişdir

## Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə 2005-ci ilin birinci yarısında respublikamızın sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirə

### Maliyyə naziri Əvəz Ələkbərovun çıxışı



- Möhtərəm cənab Prezident!

Xanımlar və cənablar!

Ulu öndərimiz Heydər Əliyevin iqtisadi strategiyasının həyata keçirilməsi hesabat dövründə daha da sürətləndirilmiş, iqtisadiyyatın neft və qeyri-neft sahələri üzrə inkişafda yeni mərhələyə qədəm qoyulmuşdur. Möhtərəm cənab Prezidentimiz İlham Əliyev tərəfindən iqtisadiyyatın inkişafı və idarə olunması istiqamətində imzalanmış qanun və fərmanlar, o cümlədən yoxsulluğun azaldılması, regionların inkişafı, antiinflyasiya tədbirləri, sahibkarlığın və lizinqin inkişafı və s. ölkədə daha demokratik iqtisadi şərait yaratmış, əsas makroiqtisadi göstərici olan ümumi daxili məhsulun 16,5 faiz artımına nail olunmuşdur. Keçən ilin birinci yarısına nisbətən adambaşına ümumi daxili məhsul istehsalı 15,3 faiz artaraq, 3 milyon manat və yaxud 614 ABŞ dolları təşkil etmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə bütün maliyyə mənbələri hesabına iqtisadiyyatın və sosial sahələrin inkişafına 10,3 faiz çox investisiya yönəldilmişdir. Əhalinin banklardakı əmanətləri 39,1 faiz artmış, orta aylıq əmək haqqı 25,9 faiz artaraq 561,2 min manata, əhalinin pul gəlirləri 25,9 faiz artaraq 2,1 milyon manata çatmışdır. Yanvar-may aylarında 122 ölkə ilə aparılmış xarici ticarət dövriyyəsinin həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə 20,4 faiz artaraq 2,8 milyard ABŞ dolları təşkil etmişdir. Dövlət büdcəsinin mədaxil proqnozuna 103,5 faiz əməl edilərək, keçən ilin müvafiq dövrünə nisbətən xəzinəyə 36,3 faiz çox vəsait və yaxud 4 trilyon 565 milyard manat daxil olmuşdur. Büdcə proqnozu Vergilər Nazirliyi tərəfindən 3 trilyon 224 milyard manat (104,5 faiz), Dövlət Gömrük Komitəsi tərəfindən 810 milyard manat (110,2 faiz) icra edilmiş, iki orqanın xətti ilə dövlət büdcəsinə ötən ilin eyni dövrü ilə müqayisədə 41,3 faiz çox vəsait köçürülmüşdür. Hesabat dövründə gəlirlərin formalaşdırılmasında özəl sektorun xüsusi çəkisi ötən illə müqayisədə 5,6 faiz artaraq 55,6 faizə çatmış, natura hesabı ilə Vergilər Nazirliyinin xətti ilə yığılan daxilolmaların 1,8 trilyon manatı bu hesaba formalaşmışdır. Ümumi daxili məhsulda özəl sektordan vergi daxilolmalarının xüsusi çəkisi 7,3 faiz təşkil etmişdir ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 1,7 bənd çoxdur. Dövlət büdcəsinin xərcləri 4 trilyon 523 milyard manat və yaxud 95,3 faiz icra edilməklə, ötən ilin eyni dövrü ilə müqayisədə 44,5 faiz çox olmuşdur. Yəni 1 iyula ehtiyat vəsait də yığılmışdır və bu aylarda maliyyələşmə çox normal davam edir.

Vəsaitin 56,4 faizi sosial yönümlü xərclərə istifadə olunmuşdur ki, bu da 34,1 faiz çoxdur. Bütövlükdə ayrı-ayrı xərc bölmələri üzrə ötən illə müqayisədə ciddi nəticələr əldə edilmişdir. Müdafiə xərclərinə 1,8 dəfə, təhsil xərclərinə 22 faiz, səhiyyə xərclərinə 1,6 dəfə, sosial təminat və sosial müdafiə xərclərinə 28,6 faiz, mədəniyyət, incəsənət, kütləvi informasiya, bədən tərbiyəsi xərclərinə 14,4 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq xərclərinə 27 faiz, sənaye və tikinti xərclərinə 46,9 faiz, nəqliyyat və rabitə xərclərinə 2,5 dəfə, iqtisadi fəaliyyətlə bağlı digər xərclərə 1,7 dəfə çox vəsait yönəldilmişdir.

Bu dövrdə bütün xərc bölmələrinə lazımi miqdarda vəsait açılmış, müdafiə olunan xərclər, əsasən də əmək haqqı və pensiyalar üzrə borc qalmamış, maliyyələşmədə sabitlik gözlənilməklə izafi xərclərə yol verilməmişdir. Açılmış vəsaitlərdən qənaətlə istifadə olunmuş, maliyyə nəzarəti daha da gücləndirilmişdir.

Ötən dövr ərzində əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində bir sıra dəyərli tədbirlər görülmüşdür. Ölkə Prezidentinin müvafiq fərmanları ilə 2005-ci ilin yanvar ayının 1-də minimum əməkhaqqı 25 faiz artaraq 125 min manata çatdırılmışdır. Bu artım 538 min nəfərə şamil olunmuşdur. Cənab Prezident bu gün bəyanatla çıxış etdi, oktyabrın 1-dən bu rəqəm 150 min manata çatdırılacaqdır. Bu barədə cənab Prezidentin müvafiq



fərmanı olacaqdır. Bizim hədəfimiz gələn il də bu müsbət işləri davam etdirməkdir. İşləməyən əmək pensiyaçılarının pensiya və müavinətlərinin minimum həddi də 125 min manata çatmış, yəni 233 min nəfər pensiyasını artırılmış şəkildə almışdır. Məcburi köçkünlərə, yəni 520 min nəfərə yemək xərci kimi verilən aylıq müavinətlər 25 min manatdan 30 min manata çatdırılmışdır. İncəsənət xadimlərinə Prezident mükafatlarının təsis edilməsi, Azərbaycan Milli Elmlər Akademiyasının yüksək vəzifəli işçilərinin əmək haqlarının artırılması, dövlətin Konstitusiya quruluşunun müdafiəsi zamanı müharibə veteranı statusu almış şəxslərə müavinətlərin verilməsi, (bu şəxslərin sayı 86 min nəfərdir), 1941-1945-ci illər müharibəsi veteranlarına Qələbənin 60 illiyi ilə əlaqədar birdəfəlik yardımların edilməsi (bu, 63 min nəfərə şamildir), fəxri adlara görə təqaüdlərin verilməsi, Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi üçün dövlət büdcəsindən tələb olunan miqdarda vəsait nəzərdə tutulmuşdur. Hesab edirəm ki, maliyyələşmədə ilin axırına qədər qətiyyən problem olmayacaqdır.

Cari ilin altı ayı ərzində dövlət investisiya xərclərinə büdcə çərçivəsində 371 milyard manat vəsait sərf edilmişdir ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 1,6 dəfə çoxdur. Bu rəqəm sübut edir ki, bizim büdcəmiz təkcə sosial yönümlü deyil, artıq inkişaf yönümlü, investisiya yönümlüdür. Həmin vəsaitdən 83 sosial-mədəni və məişət təyinatlı obyektlərin tikintisinə və yenidən qurulmasına 56 milyard manat, 50 layihə üzrə ayrı-ayrı infrastrukturların, o cümlədən Vayxır hidroqovşağının tikintisinə, regionların içməli su təchizatına, suvarma-drenaj infrastrukturunun bərpasına 77 milyard manat, respublika əhəmiyyətli avtomobil yollarının tikintisinə xərclərə 26 milyard manat vəsait yönəldilmişdir. Yolların əsaslı tikintisinə və yenidən qurulmasına digər mənbələr hesabına da vəsaitlər, yəni zəmanətli kreditlər şəklində də 100 milyardlarla manat vəsaitlər cəlb edilmişdir.

Ötən dövr ərzində dövlət büdcəsində nəzərdə tutulmayan bir sıra xərclərin maliyyələşdirilməsinə, yəni ehtiyat fondu hesabına Elmi Onkoloji Mərkəzin tibb avadanlığı ilə təchiz edilməsinə, məcburi köçkünlərin ərzaqla fasiləsiz təmin olunmasına, Böyük Vətən müharibəsində Qələbənin 60 illik yubileyi münasibətilə müharibə əlillərinə pulsuz minik avtomobillərinin verilməsinə, İctimai Televiziya və Radio Yayımları Şirkəti üçün tələb olunan texniki avadanlığın alınmasına və digər vacib tədbirlərə ehtiyat fondundan 40 milyard manat vəsait yönəldilmişdir. Azərbaycanın beynəlxalq aləmdə imicinin yüksəldilməsi, diplomatik xidmətin əhatə dairəsinin genişləndirilməsi istiqamətində işlərin davamı olaraq, cari ilin aprel ayında Bolqarıstan Respublikasında səfirliyimiz fəaliyyətə başlamış və büdcədə bunun üçün 2,9 milyard manat məqsədyönlü vəsait açılmışdır.

Bununla yanaşı, yaxın aylarda bir neçə səfirliklərin fəaliyyətə başlaması üçün də büdcədə vəsait vardır və hesab edirəm, onlar vaxtında təmin olunacaqlar.

Ölkə iqtisadiyyatında olan fəallığı real vergi bazasının genişləndirilməsini və iqtisadiyyatda gedən digər müsbət prosesləri nəzərə alaraq, 2005-ci ilin dövlət büdcəsinə yenidən baxılmış, onun gəlirləri 800 milyard manat artırılmışdır. Bu, proqnoza nisbətən, yəni bu ilin artıq təsdiq olunmuş rəqəminə nisbətən 8,5 faiz, 2004-cü ilin icrasına nisbətən 41,5 faiz çox olmuşdur. Belə artım Azərbaycanda birinci dəfədir. Yəqin ki, Şərqi Avropada və MDB məkanında belə nümunə yoxdur. 2005-ci ilin dürüstləşdirilmiş dövlət büdcəsinin xərcləri 1 trilyon 15 milyard manat və ya təsdiq olunmuş ilkin rəqəmə nisbətən 10,1 faiz, 2004-cü ilin icrasına nisbətən 46,7 faiz çox olmuşdur.

*Ardı 4-cü səh.*